*Azərbaycan Milli Elmlər Akademiyası-80*

# ELMİ ƏNƏNƏLƏRƏ QAYIDIŞ



**AMEA Lənkəran Regional Elmi Mərkəzi artıq 20 ildir ki, cənub bölgəsində qabaqcıl müəssisə kimi fəaliyyət göstərir. Dövlətimizin başçısı cənab İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 2025-ci il 18 mart tarixli Sərəncamı respublikamızın bütün elm və təhsil ocaqlarında olduğu kimi, AMEA Lənkəran Regional Elmi Mərkəzinin kollektivi tərəfindən də böyük sevinc və minnətdarlıq duyğuları ilə qarşılanıb. Sərəncamda qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı Elmi Mərkəzdə ardıcıl, silsilə tədbirlər həyata keçirilir.**





Bu günlərdə Elmi Mərkəz və Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Regionun görkəmli alimi: akademik Mirməmməd Cavadzadənin həyatı və elmi fəaliyyəti" mövzusunda ilk tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəl Heydər Əliyev Xatirə parkında ümummilli liderin abidəsini ziyarət edərək önünə tər qərənfillər düzüblər. Elmi Mərkəzdə şəhid Mahsun Bağırzadənin xatirə guşəsinin qarşısında onun parlaq xatirəsi ehtiramla anılıb.

Tədbir Heydər Əliyev Mərkəzində davam etdirilib. **AMEA Lənkəran Regional Elmi Mərkəzinin elmi katibi, tarix üzrə fəlsəfə doktoru Cəmil Quliyev** mərasimi açaraq bildirib ki, dövlətimizin başçısının müvafiq Sərəncamı AMEA-nın həyatında mühüm tarixi hadisədir, elmə, təhsilə, alimə, ziyalı təbəqəsinə verilən ən yüksək dəyərdir. Akademiya sistemində aparılan islahatlar, yeniləşmə prosesi elmin azərbaycançılıq ideologiyasına uyğun inkişaf etdirilməsinə, bu elm ocağının cəmiyyətdə nüfuzunun yüksəlməsinə öz təsirini göstərir. Xatirə işığına toplaşdığımız dünya miqyasında tanınmış görkəmli uroloq-alim, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, akademik Mirməmməd Cavadzadənin həyatı və elmi fəaliyyəti nəsillərə örnəkdir.

Sonra akademik Mirməmməd Cavadzadənin həyatı və elmi fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

**Lənkəran Regional Elmi Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru Mehman Əliyev** çıxışında bildirib ki, dünyaşöhrətli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə ölkəmizdə elmin, təhsilin inkişafına misilsiz qayğı göstərib. Ulu öndərin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Milli Elmlər Akademiyası elm sahəsində dövlət siyasətini uğurla həyata keçirir, sosial-humanitar tədqiqatlarla cəmiyyətin yeni biliklərə yiyələnməsi və elmi-mədəni səviyyəsinin yüksəldilməsi işinə layiqli töhfələr verir. Azərbaycan Milli Elmlər Akademiyası respublikamızın elmi-intellektual potensialını milli sərvətə çevirən qabaqcıl elmi mərkəz kimi böyük şöhrət tapmışdır.

Haqqında söhbət açdığımız dünyaşöhrətli tibb alimi, ulu öndərin sadiq, sədaqətli dostlarından biri, region alimlərinin bayraqdarı, akademik Mirməmməd Cavadzadə kimi elm fədailərinin köksündə müstəqilliyimizə, milli dövlətçiliyimizə məhəbbət, sədaqət hissləri əbədi qərar tutub.

Mirməmməd Cavadzadə kimi dahilər cismən aramızda olmasa da, ruhən yanımızdadır. Görkəmli alim 1927-ci il mayın 18-də Lənkəran şəhərində anadan olmuşdur. 1943-cü ildə Lənkəran şəhər 1 nömrəli tam orta məktəbini, 1948-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1948-ci ildə Astara rayonunda cərrah kimi başlamışdır. 1949-1950-ci illərdə Astara birləşmiş rayon poliklinikası və xəstəxanasında baş həkim müavini, 1950-1951-ci illərdə Lənkəran şəhər xəstəxanasında cərrah vəzifəsində çalışıb.

M.Cavadzadə 1951-ci ildə II Moskva Tibb İnstitutunun urologiya kafedrasının aspiranturasında oxumuş, 1954-cü ildə "Sidik axarının daşları" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. 1954-cü ildən 1957-ci ilə kimi Krım Tibb İnstitutunda assistent, sonra urologiya üzrə dosent olmaqla Krım Vilayətinin baş uroloqu olub. 1962-ci ildə "Böyrəklərin polikistozu" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru adını almışdır.

M.Cavadzadə 1971-ci ildə Cənubi Qafqazda ilk dəfə böyrək köçürülməsi əməliyyatını uğurla icra edib. 1971-1984-cü illərdə 30 böyrək köçürülməsi əməliyyatı aparıb. 1974-cü ildə ümummilli lider Heydər Əliyevin yüksək qayğısı sayəsində professor M.Cavadzadə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna rektor təyin edilib və ömrünün sonunadək bu vəzifədə işləyib.

Görkəmli alimin rəhbərliyi altında 17 elmlər doktoru, 71 elmlər namizədi, yüzlərlə yüksəkixtisaslı uroloq-həkim yetişib. O, urologiyanın problemlərinə həsr edilmiş 34 monoqrafiya və dərs vəsaitinin, 700-dən artıq elmi məqalənin müəllifidir. Alimin əsərləri respublikamızda və onun hüdudlarından kənarda mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib.

Respublikamızda uroloji məktəbin ilk yaradıcısı Mirməmməd Cavad oğlu Cavadzadə tibb elminin korifeyləri sırasında özünəməxsus layiqli yer tutur. Keçmiş SSRİ Tibb Akademiyasının müxbir üzvü, Avropa və Beynəlxalq uroloqlar cəmiyyətlərinin üzvü, Çexiyanın və Bolqarıstanın uroloqlar cəmiyyətlərinin fəxri üzvü olub.

Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru Mirməmməd Cavadzadənin xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif edilib. O, 2008-ci ilin avqust ayında vəfat edib, I Fəxri xiyabanda torpağa tapşırılıb.

2009-cu ildə Respublika Klinik Uroloji Xəstəxanasına Mirməmməd Cavadzadənin adı verilib. Bakı şəhərində Tərlan Əliyarbəyov küçəsində yaşadığı 2 nömrəli binaya xatirə lövhəsi vurulub.

Alimin yetirmələrindən biri, **Mirməmməd Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının həkim-uroloqu, tibb üzrə fəlsəfə doktoru Əliməmməd Bağırlı** akademikin təbabət elminə verdiyi töhfələr barədə danışıb. Bildirib ki, onun gərgin əməyi, yorulmaz səyləri sayəsində ölkəmizdə urologiya yüksək inkişaf səviyyəsinə çatıb. Akademikin təşəbbüsü ilə açılmış, ən müasir avadanlıqlarla təchiz edilmiş uroloji xəstəxana, yaratdığı urologiya məktəbi unudulmaz alimin unikal əsərləridir. Hemodializin təşkili və tətbiqi, uşaq urologiyasının yaradılması, böyrək köçürmə əməliyyatı M.Cavadzadənin adı ilə bağlıdır. Bu ad Lənkəranın brendi səviyyəsinə qaldırılmalıdır.

**Hüquq elmləri doktoru, professor, Əməkdar müəllim, Respublika Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü İbrahim Quliyev** tədbirdə çıxış edərək deyib:

- El-oba şəxsiyyətləri ilə tanınır. Mirməmməd Cavadzadə tibb sahəsində dünyaşöhrətli alim olub. Hələ sağlığında keçmiş SSRİ məkanında ilk urologiya məktəbini doğma Azərbaycanda yaradıb. Əgər alimin mənəvi zənginliyi, Vətənə sevgisi, bağlılığı yoxdursa, onun istedadının nə elmin, nə də cəmiyyətin inkişafına heç bir faydası olmaz. Akademik M.Cavadzadə Vətənini, xalqını, dövlətini sevən, zəngin, bəşəri dəyərlərə malik böyük ziyalı olubdur. Yaxşı yadımdadır. O, 1993-cü ilin yayında cənub bölgəsində baş verən hadisələri çox diqqətlə izləyir, dərin narahatlıq keçirirdi. Bölgədə separatçı ünsürlər baş qaldıranda görkəmli alim əsl vətəndaş, ziyalı mövqeyini ortaya qoydu.

Zaman keçdikcə onun böyüklüyü və əzəməti daha aydın görünür. Qoy bu gün gənclər vətənpərvər, dünyaşöhrətli alimi, peşə borcunu daim sədaqətlə yerinə yetirən görkəmli həkimin ömür yolunu, zəngin elmi-nəzəri irsini öyrənsinlər.

Sonda akademikin oğlu, **Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Urologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Samir Cavadzadə** çıxış edərək atasının xatirəsinə göstərilən yüksək ehtirama görə tədbirin təşkilatçılarına dərin minnətdarlığını bildirib.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**